# *Timur RODKİN:* "Bakı marafonunda bayram ovqatı hökm sürür"

Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Küləyə qalib gəl!" devizi altında keçirilən Bakı marafonunun iştirakçılarından biri, Rusiya təmsilçisi Timur Rodkin AZƏRTAC-ın müxbirinə müsahibəsində deyib: "Marafonda ilk dəfədir iştirak edirəm. Qaliblər sırasında olmayacağımı bilirəm, çünki bu marafon peşəkar idmançıların iştirak



etdiyi yetərincə böyük yarışdır".

T.Rodkin deyib: "Bu gün hava sarıdan bəxtimiz gətirib. Nə soyuqdur, nə də isti. Təcrübəsiz qaçışçılar üçün yaxşı sınaqdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən Bakı marafonunda bütövlükdə bayram ovqatı hökm sürür, hakimlər ədalətli, təşkilatçılar mehribandır".